# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 397** **Bakı şəhəri, 21 dekabr 2021-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 dekabr tarixli 505 nömrəli Qərarı ilə təsdiq edilmiş "Aqrar sığorta üzrə təminat verilən risklərin tərkibi"ndə dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 dekabr tarixli 505 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 2086) ilə təsdiq edilmiş "Aqrar sığorta üzrə təminat verilən risklərin tərkibi"nə aşağıdakı məzmunda 1.1.6-1.1.10-cu və 1.4.5-ci yarımbəndlər əlavə edilsin:

"1.1.6. sel və ya subasma;

1.1.7. leysan;

1.1.8. ildırım;

1.1.9. şaxtavurma (donvurma);

1.1.10. normadan artıq yağan qar yağıntıları;

1.4.5. kimyəvi maddələrin təsirindən zəhərlənmə nəticəsində ölüm;".

***Əli ƏSƏDOV***

***Azərbaycan Respublikasının Baş naziri***